iki sahil -2019.- 8 noyabr.- S.9.

# Hər bir millətin qürur mənbəyi onun dövlət atributlarıdır

Ötən gün Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının təşkilatçılığı ilə 9 noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş "Bizim bayrağımız bizim qürur mənbəyimizdir. Bizim bayrağımız bizim canımızdır, bizim ürəyimizdir" adlı tədbir keçirilib.

Dövlət Bayrağı Gününə həsr olunmuş videoçarxın nümayişi ilə başlayan tədbir hərbi vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlının, YAP Nəsimi rayon təşkilatının Gənclər Birliyinin üzvləri Səddam Məmmədovun, Zeynəb Əliyevanın, Taleh Qasımovun çıxışları ilə davam edib.

Daha sonra YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı, Milli Məclisin sədrinin müavini Bahar Muradova, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovun çıxışları dinlənilib.



Natiqlər Dövlət Bayrağı Gününün əhəmiyyətindən bəhs ediblər. Xatırladıblar ki, 2009-cu il noyabrın 17-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Vurğulanıb ki, Dövlət Bayrağı Gününün təsis olunması dövlətimizin başçısının müstəqilliyimizə, dövlətçiliyimizə olan ehtiramından irəli gəlir.

Bildirilib ki, müstəqilliyin bərpasından sonra Azərbaycanın dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin dövlətçilik rəmzlərindən birinə çevrilib. Qeyd edilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir. Bu mənada ölkəmizdə Dövlət Bayrağı Gününün qeyd olunması həm dövlətimiz, həm də xalqımız üçün olduqca əlamətdar bir hadisədir, eyni zamanda, keçib gəldiyimiz yola, tarixə qısa bir nəzər salmaq imkanıdır.

**Ceyhun Piriyev,**
*"İki sahil"*